1_Layout 1 14.06.2018 10:18 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*
**İlham ƏLİYEV**

# ƏSGƏR

№ 12 (528)
14 iyun
2018-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

## 15 İYUN XALQIMIZIN YADDAŞINA MİLLİ QURTULUŞ GÜNÜ KİMİ HƏKK OLUNDU

*Heydər Əliyevin müdrikliyi və qətiyyəti Azərbaycanda vətəndaş qarşıdurmasına birdəfəlik son qoydu, ölkəmizi xaosdan, siyasi çəkişmələrdən, sosial-iqtisadi böhrandan xilas etdi*

**1993-cü il iyunun 15-i Azərbaycan tarixinə Milli Qurtuluş Günü kimi daxil olub və dövlətçiliyimiz yox olmaq təhlükəsindən xilas edilib. Azərbaycan xalqının Milli Lideri Heydər Əliyev öz xilaskarlıq missiyası ilə ölkəmizin müstəqilliyini qorudu, respublikada tüğyan edən ictimai-siyasi böhranı aradan qaldırdı və inkişafın təməlini qoydu. Bu gün milli qurtuluş ideologiyasının təntənəsi müstəqil respublikamızın davamlı inkişafında özünü büruzə verir, regionda və dünyada Azərbaycanın nüfuzu daha da artır.**



Milli qurtuluş fəlsəfəsi sözün geniş mənasında Azərbaycanın mövcudluğunu, onun ən böyük tarixi nailiyyəti olan müstəqilliyini təmin etdi. Xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə qayıdan Heydər Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçildi. Ulu Öndər böyük risklərə baxmayaraq, xalqın qurtuluşu missiyasını cəsarətlə öz üzərinə götürdü. Bununla da ölkədə uzun illər davam edən gərginlik və qarşıdurma səngidi, respublikamız vətəndaş müharibəsindən və parçalanma təhlükəsindən xilas oldu. Beləliklə, bu mühüm tarixi gün xalqımızın yaddaşına Milli Qurtuluş Günü kimi həkk olundu və 1997-ci ildən etibarən parlamentin qərarı ilə rəsmi bayram kimi qeyd olunur.

Milli Məclisin 1993-cü il iyunun 15-də keçirilən iclasındakı çıxışında Ulu Öndər Azərbaycan dövlətçiliyinin gələcək inkişaf strategiyasını elan etdi və sonrakı illərdə onu həyata keçirdi. Əgər müstəqilliyi qazanmaq ilkin şərt idisə, ikinci vacib məsələ onu qoruyub inkişaf etdirmək idi və bu, Milli Liderin iradəsi sayəsində reallığa çevrildi. Heydər Əliyev milli dövlətçiliyimizin konsepsiyasını yaratdı. Bütün maneələrə baxmayaraq, ən qısa müddətdə ölkədə ictimai-siyasi sabitlik bərpa olundu. AXC-Müsavat hakimiyyəti isə təbii ki, Heydər Əliyevin uğurlarını qısqanclıqla qarşılayıb ona mane olmağa çalışdı. Vəziyyətdən səbirlə çıxan Prezident Heydər Əliyev televiziya vasitəsilə xalqa müraciət etdi. İyunun 20-də Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması məqsədilə yerli və xarici jurnalistlər üçün brifinq keçirdi. İyunun 21-də isə bir sıra ölkələrin diplomatları ilə görüşdü. Bu sahədə yürüdülən siyasət respublikanı informasiya blokadasından çıxartdı. Dünyada ölkəmizlə bağlı formalaşan fikir müsbət yönümdə dəyişdi. Məhz belə bir mürəkkəb siyasi şəraitdə Heydər Əliyevin böyük potensialı Azərbaycanın müstəqilliyinin qarantına çevrildi. Milli Liderin şəxsiyyəti, onun özünəməxsus siyasi idarəetmə qabiliyyəti, xarizması, qətiyyəti, uzaqgörənliyi böhrana son qoydu, xalqımız Azərbaycan və azərbaycançılıq ideyaları ətrafında birləşdi. Milli Liderin müdrikliyi və qətiyyəti sayəsində Azərbaycanda vətəndaş qarşıdurmasına birdəfəlik son qoyuldu, ölkəmiz xaosdan, siyasi çəkişmələrdən, sosial-iqtisadi böhrandan xilas oldu. Azərbaycan müstəqil, demokratik, hüquqi və dünyəvi dövlət kimi inkişaf etməyə başladı. Respublikanın qarşısında duran problemlər mərhələlərlə həll olundu, əmin-amanlıq, siyasi sabitlik yarandı. İctimai-siyasi, sosial-iqtisadi, elmi və mədəni həyatda əsaslı dönüş başlandı, xalqımızın bütövlüyü, həmrəyliyi, milli birliyi təmin edildi, Azərbaycanın dünya birliyinə inteqrasiyası başlandı.

Milli Lider Heydər Əliyevin 1993-cü il iyunun 15-də Azərbaycanda hakimiyyətə qayıdışı dövlətçilik tariximizin şanlı səhifəsini təşkil edir. Qədirbilən xalqımız böyük xilaskarının xidmətlərini unutmur və 15 İyun - Milli Qurtuluş Gününü hər il yüksək əhval-ruhiyyə ilə qeyd edir.

**AZƏRTAC**

## PREZİDENT, ALİ BAŞ KOMANDAN İLHAM ƏLİYEV MÜDAFİƏ NAZİRLİYİNİN "N" SAYLI HƏRBİ HİSSƏSİNİN AÇILIŞINDA İŞTİRAK EDİB

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev iyunun 11-də Müdafiə Nazirliyinin Raket Qoşunlarının "N" saylı hərbi hissəsinin açılışında iştirak edib*

**AZƏRTAC** xəbər verir ki, müdafiə naziri Zakir Həsənov dövlətimizin başçısına raport verdi.

Bildirildi ki, hərbi hissənin inşasına 2017-ci ilin mayında başlanılıb. Ümumi ərazisi 36 hektar olan hərbi hissədə qərargah binası, əsgər yeməkxanası və yataqxanası, idman və sıra düzülüş meydançaları, maşınlar üçün qaraj, nəzarət buraxılış məntəqəsi, nəzarət qülləleri quraşdırılıb.

Hərbi hissənin qərargah binası müasir səviyyədə inşa olunub. Binada hərbçilər üçün bütün zəruri avadanlıqla təchiz edilən iş otaqları var. Bir sözlə, burada hərbi qulluqçulara xidmətlərini yüksək səviyyədə aparmaq üçün hərtərəfli şərait yaradılıb. Bu cür müasir qərargah binalarının yaradılması hərbi potensialın artırılması, əsgər və zabitlərin xidmət şəraitlərinin yüsək səviyyədə təmin edilməsi istiqamətində dövlətimizin atdığı mühüm addımların ardıcıl olduğunu bir daha göstərir.

Dövlətimizin başçısı hərbi hissənin əsgər yataqxanasında yaradılan şəraitlə də tanış oldu.

Yataqxana binasında əsgərlərin qalması və istirahəti üçün hərtərəfli şərait var. Burada məişət və əşya otaqları, dəftərxana və digər zəruri otaqlar yaradılıb. Yataqxanadakı ideoloji otaqda hərbi qulluqçular Azərbaycanın hərb tarixinin şanlı səhifələri barədə məlumat alacaqlar.

Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev döyüş texnikası parkında hərbi texnikaya baxdı.

Ali Baş komandana əməliyyat-taktiki raket kompleksi olan "POLONEZ" barədə məlumat verildi. Onun maksimal atış uzaqlığı 300 kilometrə qədərdir. Raketin çəkisi 780 kiloqram, döyüş başlığı hissəsinin çəkisi 140 kiloqram, zərərvurma radiusu isə 80 metrdir. "POLONEZ"in maksimal uçuş müddəti saniyədə 310 metr, atışa hazırlıq vaxtı 10 dəqiqə, istismar müddəti isə 10 ildir. Bir döyüş maşınında 8 raket olur. Bu kompleks düşmənin əməliyyat düzülüşünün bütün dərinliyində onun nüvə və kimyəvi hücum vasitələrinə, kəşfiyyat-zərbə sistemlərinin yerüstü elementlərinə, qoşunların əsas qruplaşmalarına, bazalarda yerləşən aviasiyasına, hava hücumundan müdafiə vasitələrinə və obyektlərinə, idarəetmə məntəqələrinə, radioelektron vasitələrinə, arxa cəbhə və digər obyektlərinə zərbə vurulması üçündür. Bundan başqa, kompleks vasitəsilə dənizsahili istiqamətlərdə düşmən donanmasının yerləşmə məntəqələri dağıdılır və onun döyüş gəmiləri məhv edilir.





Əməliyyat-taktiki raket kompleksi olan "LORA" da "POLONEZ" kompleksi kimi döyüş zamanı eyni məqsədlər üçün istifadə edilir. Maksimal atış uzaqlığı 300 kilometrdən artıq olan bu kompleksin raketinin çəkisi 1580 kiloqram, döyüş başlığı hissəsinin çəkisi isə 240 kiloqramdır. Raketin zərərvurma radiusu 100 metr təşkil edir. Bir döyüş maşınında 4 raket olur. Onların maksimal uçuş müddəti saniyədə 300 metrdir, atışa hazırlıq vaxtı 13 dəqiqə, istismar müddəti 10 ildir. Həm "POLONEZ", həm də "LORA" kompleksləri GPS və İNS sistemləri ilə idarə olunur.

Bütün bunlar göstərir ki, Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə son dövrlərdə Ordumuzun müasir silah-sursat, hərbi texnika ilə təminatı məsələsinə xüsusi diqqət və qayğı ilə yanaşılır. Təsadüfi deyil ki, bu gün Ordumuzun balansında dünyanın ən müasir silah-sursatı və hərbi texnikası var.

## DAXİLİ QOŞUNLAR KOMANDANININ RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ QAZAXISTANDA RƏSMİ SƏFƏRDƏ OLUB

***Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədovun rəhbərlik etdiyi nümayəndə heyəti Qazaxıstan Respublikasının Daxili İşlər Naziri polis general-polkovniki Kalmuxammed Kasımovun dəvətilə 29-31 may tarixlərində bu ölkədə rəsmi səfərdə olub.***



Səfərin birinci günü nümayəndə heyəti daxili işlər orqanlarının vahid sisteminə daxil olan Qazaxıstan Respublikası Milli Qvardiyasının inzibati binasında Milli Qvardiyanın Baş Komandanı general-leytenant Ruslan Jakslikov tərəfindən qəbul edilib.

Görüş zamanı Azərbaycan nümayəndə heyətinin rəhbərinə Milli Qvardiyanın xidməti-döyüş fəaliyyəti, beynəlxalq əlaqələri barədə məlumat verilib. İki ölkənin müvafiq qurumları arasında əməkdaşlıq münasibətlərinin gələcək perspektivlərinin müzakirə olunduğu görüşdə qarşılıqlı təcrübə mübadiləsinin vacibliyi vurğulanıb.

Səfər proqramına uyğun olaraq növbəti görüş Qoşunların İdarə Olunması Mərkəzində baş tutub. Mərkəzin akt zalında monitor vasitəsilə idarəetmə, idarəetmənin texniki imkanları praktiki olaraq nümayiş etdirilib.



Həmin gün general-leytenant Ş.Məmmədovun rəhbərlik etdiyi nümayəndə heyəti Qazaxıstan Respublikası Milli Müdafiə Universitetində təlim-təhsilin vəziyyəti ilə maraqlanıb, yaradılmış şəraitlə tanış olub. Universitetin beynəlxalq əlaqələri barədə azərbaycanlı qonaqlara məlumat verilib.

Daha sonra Daxili Qoşunların zabitlərindən ibarət nümayəndə heyəti Milli Qvardiyanın Astana şəhərində yerləşən "N" saylı hərbi hissəsində olublar. Burada hərbi hissənin istifadəsində olan hərbi texnika, müxtəlif silahlandırma vasitələrinə baxış keçirilib, Milli Qvardiyanın Muzeyi ilə tanışlıq olub.

Səfərin sonuncu günü - mayın 31-də nümayəndə heyəti Karakanda şəhərində Qazaxıstan Milli Qvardiyasının Mərkəzi Regional Komandanlığının rəhbəri general-mayor Erkin Botakanovla görüşüb. Qarşılıqlı fikir mübadiləsi şəraitində keçən görüşdən sonra qonaqlar Regional Komandanlığın iki hərbi hissəsinə baş çəkiblər. Nümayəndə heyəti hərbi hissənin hərbi-texniki imkanları, şəxsi heyətin xidməti-döyüş fəaliyyəti, sosial-məişət şəraiti ilə tanış olub.





Mayın 31-də Daxili Qoşunların nümayəndə heyətinin Qazaxıstan Respublikasına rəsmi səfəri başa çatıb.

**Mətbuat xidməti**

2_Layout 1 14.06.2018 10:23 Page 1



# DAXİLİ QOŞUNLARDA MİLLİ QURTULUŞ GÜNÜNƏ HƏSR OLUNMUŞ TƏDBİR KEÇİRİLİB

***İyunun 13-də Daxili Qoşunların Baş İdarəsində 15 iyun - Milli Qurtuluş Gününə həsr olunmuş təntənəli tədbir keçirilib. Tədbirdə əvvəlcə Milli Lider Heydər Əliyevin və respublikamızın suverenliyi, ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Daxili Qoşunların Nümunəvi Göstərici Hərbi Orkestrinin müşayiətilə Dövlət Himni ifa olunub.***

Tədbir iştirakçıları Ulu Öndər Heydər Əliyevin həyatı və xalqımız qarşısındakı fədakar xidmətlərindən bəhs edən “Milli Qurtuluşdan İntibaha” adlı film izləyib.





Sonra “Milli Lider Heydər Əliyev Azərbaycan xalqının xilaskarı, müstəqilliyin və dövlətçiliyin memarıdır” mövzusunda məruzə ilə Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutunda Əliyevşünaslıq şöbəsinin müdiri, tarix üzrə elmlər doktoru Ədalət Qasımov çıxış edib.

Tədbir iştirakçılarını Milli Qurtuluş Günü münasibətilə təbrik edən məruzəçi qeyd edib ki, Azərbaycan tarixinə əlamətdar gün kimi daxil olan bu tarix məhz dahi şəxsiyyət Heydər Əliyev tərəfindən yazılıb. O, Milli Liderimiz Heydər Əliyevin həmin dövrdə Azərbaycan Respublikasını parçalanmaqdan hifz edərək, ölkədə tüğyan edən ictimai-siyasi böhranı aradan qaldırdığını və sosial-iqtisadi inkişafın təməlini qoyduğunu xüsusi olaraq vurğulayıb: “1991-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri kimi bu diyarın xilası yolunda sözün əsl mənasında fədakarlıq göstərən Heydər Əliyev xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtdı. 1993-cü il iyunun 15-də Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi. Milli Lider Heydər Əliyev 1993-cü ildə Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında dönüş yaratdı. Həmin dövrdən beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Xilaskarlıq missiyası Onun alın yazısı idi. Beləliklə, 15 iyun Azərbaycanın tarixinə Milli Qurtuluş Günü kimi daxil oldu”.

Milli Məclisin 1993-cü il iyunun 15-də keçirilən iclasındakı çıxışında Ulu Öndərin Azərbaycan dövlətçiliyinin gələcək inkişaf strategiyasını elan etdiyini və sonrakı illərdə onu həyata keçirdiyini söyləyən tarix üzrə elmlər doktoru Ə.Qasımov, xilaskarımızın Azərbaycan xalqı üçün atdığı müdrik addımların heç vaxt yaddaşlarımızdan silinməyəciyini bildirib: “Əgər müstəqilliyi qazanmaq ilkin şərt idisə, ikinci vacib məsələ suverenliyi qoruyub inkişaf etdirmək idi. Bu, Milli Liderin iradəsi sayəsində reallığa çevrildi. O, milli dövlətçiliyimizin konsepsiyasını yaratdı. Bütün maneələrə baxmayaraq, ən qısa müddətdə ölkədə ictimai-siyasi sabitlik bərpa olundu. Məhz belə bir mürəkkəb siyasi şəraitdə Heydər Əliyev dövlət müstəqilliyimizin qarantına çevirdi”.

Silahlı Qüvvələrin yaradılması sahəsində dahi Liderin ölçüyəgəlməz xidmətləri olduğunu da tədbir iştirakçılarının diqqətinə çatdıran tarixçi Azərbaycan Respublikasının hazırda mövcud olan güclü ordusunun formalaşması prosesinin təməlinin hələ o dövrdə qoyulduğunu bildirdi: “Ulu Öndər tərəfindən həyata keçirilən mütərəqqi tədbirlərin nəticəsi kimi, Silahlı Qüvvələrin formalaşdırılması, Azərbaycanın milli mənafelərini qorumağa qadir nizami ordunun yaradılması, torpaqlarımızın müdafiə olunması ilə bağlı mühüm addımlar atıldı, eyni zamanda bütün siyasi və diplomatik vasitələr işə salındı, bunun da nəticəsində 1994-cü ilin mayında ölkəmiz üçün böyük əhəmiyyət kəsb edən atəşkəs imzalandı”.

Çıxışının sonunda 15 iyun tarixinin xalqımız tərəfindən böyük iftixar hissi ilə qeyd edildiyini deyən Ə.Qasımov vurğulayıb ki, Ulu Öndərin siyasi irsi onun layiqli davamçısı, Respublika Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən bu gün uğurla davam etdirilir, müstəqil Azərbaycan dövləti sürətlə inkişaf edir.

Daha sonra tədbirin aparıcısı Azərbaycan xalqının Milli Lideri, XX yüzilliyin görkəmli şəxsiyyətlərindən olan Ulu Öndər Heydər Əliyevin Respublika hakimiyyətinə qayıdışının 25-ci ildönümünün tamam olduğunu nəzərə çatdıraraq deyib ki, qədirbilən Azərbaycan xalqı artıq 1997-ci ildən etibarən bu əlamətdar tarixi Milli Qurtuluş günü kimi qeyd edir.

Tədbirin sonunda Milli Lider Heydər Əliyevin azərbaycançılıq və dövlətçilik ideologiyası haqqında dediyi dəyərli fikirlər səsləndirilib: “Canım və varlığım qədər sevdiyim Azərbaycan mənim qibləgahımdır. Müstəqil Azərbaycan dövləti gündən-günə möhkəmlənəcək, inkişaf edəcək və müstəqilliyini heç zaman əldən verməyəcəkdir”.

# QOŞUNLARA HƏVALƏ OLUNMUŞ TAPŞIRIQLAR VƏ QANUNLA MÜƏYYƏN EDİLMİŞ VƏZİFƏLƏR LAYİQİNCƏ YERİNƏ YETİRİLİB

Beynəlxalq idman yarışlarının mərkəzi hesab olunan Bakı şəhərində iyun ayının 5-dən 9-dək velosiped idmanının “BMX Racing” növü üzrə dünya çempionatı keçirilib.

Yarışda ictimai qaydanın qorunmasına və ictimai təhlükəsizliyin təmin edilməsində digər hüquq mühafizə qurumları ilə yanaşı Daxili Qoşunların şəxsi heyəti də yaxından iştirak edib.

Turnir ərəfəsində qoşunlara həvalə olunmuş tapşırıqlar, eləcə də qanunla müəyyən edilmiş vəzifələr layiqincə yerinə yetirilib.

Belə ki, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi məqsədilə cəlb olunan qüvvə və vasitələrin plan-hesabı hazırlanıb. İstehkamçı qruplar tərəfindən öncədən yarışın keçiriləcəyi ərazi, stasionar postlar və marşrutlar müayinə edilib. Gündəlik olaraq perimetr üzrə hərbi qulluqçudan başqa, istehkamçılar, kinoloqlar və ehtiyat qrup da xidmətə cəlb olunub. Əməliyyat şəraitinin fasiləsiz izlənilməsi üçün idarəetmə məntəqəsinin fəaliyyəti təmin edilib. Şəxsi heyətin zahiri görünüşü, geyim formasının daşınma qaydası, habelə mənəvi-psixoloji durumu və etik-davranış qaydalarına ciddi əməl edilməsi daima nəzarətdə saxlanılıb. Bundan başqa, xidmət zamanı şəxsi heyətin qidalanması, həmçinin sağlamlıq durumları diqqət mərkəzində saxlanılıb. Yarış müddətində cinayət, hadisə və kobud intizam pozuntusu hallarına yol verilməyib.









Xidmət zamanı yüksək döyüş hazırlığı və nümunəvi hərbi intizam nümayiş etdirən bir sıra hərbi qulluqçular hərbi hissə komandirinin müvafiq əmrinə əsasən mükafatlandırılıb.

**kapitan T.Əlizadə**

# HƏRBİ HİSSƏLƏRİN YARANMASININ 26-cı İLDÖNÜMÜ QEYD EDİLİB

İyun ayının 12-də Daxili Qoşunların 67987, 25032 və 64412 saylı hərbi hissələrinin yaradılmasının 26-cı ildönümü qeyd olunub. Bu münasibətlə hərbi hissələrdə təntənəli mərasim keçirilib.

Yarandıqları gündən etibarən zəngin xidmət yolu keçərək, böyük təcrübə toplayan hərbi hissələrimiz döyüş təlimi, tərbiyə işinin təşkili və şəxsi heyətin sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində nəzərəçarpacaq irəliləyişlər əldə edib və nailiyyətlər qazanıb.

Qeyd edək ki, ötən 26 il müddətində adıçəkilən hərbi hissələrdə hərbi qulluqçuların peşəkarlıqlarının artırılması üçün təlim prosesinin təkmilləşdirilməsi, tədrisin müasir standartlara uyğun şəkildə aparılması məqsədilə müvafiq effektiv tədbirlər də həyata keçirilib.

Hərbi hissələrinin ildönümü münasibətilə Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədov hərbi hissələrin şəxsi heyətinə təbrik məktubu ünvanlayıb.

Təbriklərdə şəxsi heyətin Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin Daxili Qoşunlara göstərdiyi etimadı hər zaman doğruldacaqlarına, hərbi xidmət borcunu vicdanla yerinə yetirəcəklərinə, vətənpərvərlik amalına sadiq qalaraq, dövlətçiliyimizin qorunması naminə xidmət aparan Daxili Qoşunların daha da qüvvətlənməsi və inkişafı yolunda öz töhfələrini əsirgəməyəcəklərinə əminlik ifadə olunub.

Qeyd olunub ki, Daxili Qoşunların ciddi nizam-intizamın hökm sürdüyü hərbi hissələri əmin-amanlığın, asayişin sadiq keşikçisi olaraq, qarşıya qoyulan xidməti-döyüş tapşırıqlarını tam və keyfiyyətlə, yüksək səviyyədə yerinə yetirməyə qadirdir və şəxsi heyət xalqın, dövlətin, Vətənin mənafeyi naminə xidməti vəzifə borclarının öhdəsindən həmişə olduğu kimi, bundan sonra da layiqincə gələcəkdir.

**Mətbuat xidməti**

# DAXİLİ QOŞUNLARIN DAYAQ RABİTƏ QOVŞAĞI NÜMUNƏVİLİYİ İLƏ SEÇİLİR

Daxili Qoşunların xidməti-döyüş fəaliyyətində, habelə daima yüksək döyüş hazırlığının qorunub saxlanılmasında mühüm bölmələrdən biri də Dayaq rabitə qovşağıdır. Dayaq rabitə qovşağı Baş idarə ilə hərbi hissələr və qarşılıqlı əlaqədə olan digər qurumlarla rabitənin təmin olunmasını həyata keçirir. Həmçinin, məlumatların qəbul edilməsini, ötürülməsini, rabitə, naqil, mövcud şəbəkələrin fasiləsiz işinə nəzarəti, radio vasitələrinin təmirini yerinə yetirir. Dayaq rabitə qovşağının fəaliyyəti barədə məlumat almaq məqsədilə qovşağın rəisi mayor Abbasəli Mehdiyevlə söhbət etdik. İş prinsipinin əsasları, xidməti fəaliyyətinin istiqaməti barədə ətraflı şəkildə məlumat verən rəis qarşısına qoyulan tapşırıqların icrası zamanı Silahlı Qüvvələrin nizamnamələrini, Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunlar Komandanının, habelə Daxili Qoşunlar Komandanının 1-ci müavini-Qərargah rəisinin əmr, direktiv və göstərişlərini rəhbər tutduğunu bildirdi. O, Daxili Qoşunların Baş İdarəsində və hərbi hissələrdə dayanıqlı və fasiləsiz rabitəni təşkil və təmin etdiklərini söylədi. Qarşılarında duran əsas tapşırıqların qovşağın rabitə vasitələrinin texniki istismarını, rabitənin bütün növlərinin operativliyi, dəqiqliyi və məxfiliyini, həmçinin, qovşağın elementlərinin yüksək döyüş hazırlığını təmin etməkdən ibarət olduğunu vurğuladı.





Daxili Qoşunların istismarında olan bütün növ rabitə vasitələrindən Daxili Qoşunlar Komandanının 1-ci müavini-Qərargah rəisinin müvafiq göstərişinə əsasən, hər həftənin IV günlərində qısa dalğa və ultraqısa dalğalı radiostansiyalar üzərindən verilmiş istiqamətlər üzrə radioqramların, məlumatların, komandaların ötürülməsi və qəbulu həyata keçirilir. DQBİ-də və hərbi hissələrdə rabitə xətlərində, videomüşahidə sistemlərində və səs-siqnal qurğularında baş vermiş proqram təminatı pozuntularının aradan qaldırılmasında mütəxəssislərimizin rolu əvəzsizdir.

Dayaq rabitə qovşağı idarə heyətindən və müxtəlif təyinatlı taqımlardan ibarətdir. Taqımlardan biri Baş İdarədə yaradılmış döyüş postlarında xidmətə cəlb olunur. Digər taqımın şəxsi heyəti səyyar idarəetmə maşınlarına texniki qulluq və müəyyən olunmuş dislokasiya məntəqələrinə çıxaraq radiorabitəni təşkil edir. Başqa bir taqımda isə Baş İdarədə və hərbi hissələrdə rabitə avadanlıqlarında və xətlərində baş vermiş proqram təminatı pozuntularının aradan qaldırılması üçün peşəkar texniklər fəaliyyət göstərir.

Şəxsi heyətin nizam-intizamına və döyüş hazırlığına nəzarət etməyin də xidmətinin əsası olduğunu vurğulayan mayor A.Mehdiyev təsdiq olunmuş tədbirlər planına əsasən, Dayaq rabitə qovşağının şəxsi heyətinin bilik və bacarıqlarının təkmilləşdirilməsi üçün onlarla ixtisasa uyğun məşğələlərin keçirildiyini sözlərinə əlavə etdi: “Mütəmadi olaraq öz üzərimizdə işləməyin, keçirilən məşğələlərin keyfiyyətli təşkili və mənimsənilməsinin nəticəsidir ki, bu il ümumi inspeksiya yoxlamasını hərbi qulluqçularımız fərqlənərək yüksək balla başa vurmuşdur. Uğuru qazanmaq da onu qoruyub saxlamaq da olduqca çətindir. Söz veririk ki, bugünkü nailiyyətlərimiz bizdə arxayınlıq yaratmayacaq, əksinə, bundan sonra daha da əzmlə çalışmağımıza stimul verəcək”.

**leytenant N.Ağayeva**

# 2018-ci İLİN İKİNCİ TƏDRİS DÖVRÜNƏ GÖRƏ FƏRQLƏNƏN BÖLÜK

16076 saylı hərbi hissə mühüm dövlət obyektlərinin etibarlı mühafizəsi və müdafiəsini keyfiyyətlə yerinə yetirir. Hissənin döyüş hazırlığı da məhz bu istiqamətdə, qəflətən qarşıya çıxan tapşırıqların dəqiq və vaxtında yerinə yetirilməsi, dövlət obyektlərinə basqınlar, fövqəladə vəziyyət zamanı müvafiq tədbirlərin həyata keçirilməsi ilə səciyyələnir.

Bu mənada hərbi hissənin mühafizə və müdafiəsini etibarlı şəkildə təmin edən baş leytenant Elmir Sadıqovun komandiri olduğu mühafizə bölüyü hər zaman sayıqlıq və əzmkarlıq nümayiş etdirir. Xidmətin uğurlu təşkili istiqamətində bütün qüvvəsini səfərbər edən komandir hərbi qulluqçular arasında qarşılıqlı münasibətin qorunub saxlanılması, kiçik komandir heyətilə daima bu istiqamətdə söhbətlərin aparılmasını xidmətin əsas meyarı kimi dəyərləndirdi.

Bölükdə günün nizamında nəzərdə tutulan tədbirlərin icrası vaxtlı-vaxtında həyata keçirilir, hər bir hərbi qulluqçudan gün nizamına əməl etməsi tələb olunur. 2018-ci tədris ilinin 2-ci dövrünü 1-ci tədris dövrü ilə müqayisə edərkən, ötən dövr ərzində bölükdə döyüş təlimi üçün mövcud imkanlardan tam istifadə edildiyi, keçirilən məşğələlərin keyfiyyətinin kifayət qədər artırıldığının şahidi oluruq. Mühüm dövlət obyektlərinin mühafizə və müdafiəsi üçün qarovul xidmətinə təyin olunmuş hərbi qulluqçularla fiziki hazırlığın təşkil edilməsi zamanı silah və fərdi müdafiə vasitələrindən istifadə etməklə, əlbəyaxa döyüş üsullarının təkmilləşdirilməsinə xüsusi diqqət verilir. Şəxsi heyətin dözümlülük keyfiyyətlərinin inkişaf etdirilməsi məqsədilə, hər həftə 3 km, ayda bir dəfə 5 km məsafəyə qaçış yerinə yetirilir. Tədris dövrü ərzində əsas təlim fənləri olan Daxili Qoşunların taktiki, fiziki, sıra, atəş, ictimai-siyasi hazırlıqları və nizamnamələr üzrə keçirilən məşğələlər keyfiyyətlə həyata keçirilib.

Bölük komandiri mühafizə bölüyünün qarşısına qoyulan bütün tapşırıqların uğurla icra olunduğunu, hərbi qulluqçularla döyüş və ictimai-siyasi hazırlıq üzrə proqramın mənimsənilməsi üçün əlavə tədbirlərin görüldüyünü nəzərimizə çatdırdı. Bir komandir kimi şəxsi heyətin ruh yüksəkliyinin artırılmasına xüsusi diqqət yetirdiyi barədə söz açdı. Qarovul xidmətinə seçilən hərbçilərin əsasən mənəvi-psixoloji durumuna, sağlamlığına, nəzəri biliyinə və xidmətə girən hərbi qulluqçuların bir-birilə qarşılıqlı münasibətlərinə nəzarət edilir. Bölüyə yeni daxil olanlarla iki həftəlik təlim kursları təşkil olunub keçirilir. Görülən işlərin nəticəsidir ki, bölük 2-ci tədris dövründə hərbi hissə üzrə bütün təlim fənlərini mənimsəyərək yoxlama-nəzarət məşğələlərində yüksək nəticələr əldə edib.



**leytenant N.Ağayeva**

# HƏRBİ QULLUQÇULARLA METODİKİ-TƏLİM TOPLANIŞLARI KEÇİRİLİB



Ötən ayın 23-dən 24-dək kimya və mühəndis xidmətinin rəisləri, həmçinin, zabitləri ilə metodiki-təlim toplanışı keçirilib.

Toplanışda Daxili Qoşunların mühəndis texnikası, əmlak və sursatları, partlayıcı maddələri, kimya texnikası, kimyəvi silahlanma vasitələri barədə məşğələlər keçirilib. Məşğələlərdə “TOMA” kütləvi iğtişaşlara müdaxilə avtomobilinin təyinatı, taktiki-texniki xüsusiyyətləri, istifadə qaydaları, avtomobildə texniki qulluq tədbirlərinin keçirilməsi, eləcə də rəngli boya, yanğın əleyhinə köpük doldurulma, manеələrin dağıdılması, yanğının söndürülməsi qaydaları və ümumi təhlükəsizlik təlimatı da tədris olunub. Bundan başqa, metodiki-təlim toplanışında nəzarət-buraxılış məntəqəsində avtomobillərin, binaların və otaqların yoxlanılması, əl detektorlarının təyinatı və taktiki-texniki xüsusiyyətləri barədə nəzəri, eyni zamanda praktiki məşğələlər keçirilib.

* * *

“2018-ci ildə Daxili Qoşunlarda əsas tədbirlərin, döyüş təliminin planlaşdırılması və təşkilinə dair təqvim planı”na əsasən, iyun ayının 5-dən 6-dək Ali Hərbi Məktəbdə, hərbi hissələrdə qarovul rəisləri və onların köməkçiləri ilə metodiki-təlim toplanışı keçirilib.

Metodiki-təlim toplanışının təşkili və keçirilməsi ilə əlaqədar bütün zəruri xidməti sənədlər tərtib edilib. Toplanışın təşkili və keçirilməsi planına uyğun olaraq, aidiyyəti üzrə vəzifəli şəxslər tərəfindən nəzərdə tutulmuş tədbirlərin icrası vaxtlı-vaxtında təmin olunub. Şəxsi heyət tərəfindən günün nizam qaydalarının tələblərinin yerinə yetirilməsinə nəzarət edilib, daxili qarovulların xidmətinin təşkili və aparılması yoxlanılıb. Bununla yanaşı, Bakı qarnizonunda yerləşən



Ali Hərbi Məktəbdə, hərbi hissələrdə komendant, o cümlədən mühafizə bölmələrinin şəxsi heyətinin nizam-intizamı və mənəvi-psixoloji vəziyyəti öyrənilib.

Həmçinin, toplanışda hərbi qulluqçulara məşğələlər keçirilib. Məşğələlərdə Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin Qarnizon və Qarovul Xidmətləri Nizamnaməsinin tələbləri, xüsusilə qarovul heyətinin vəzifəli şəxslərinin vəzifələri, silahın tətbiq olunması, obyektlərin mühafizəyə qəbul edilməsi, habelə qarovulun xidməti sənədlərinin işlənilməsi qaydaları öyrədilib. Metodiki-təlim toplanışının sonunda şəxsi heyətdən Silahlı Qüvvələrin Qarnizon və Qarovul Xidmətləri Nizamnaməsindən və atəş hazırlığından normativlər qəbul edilib.

* * *

Daha bir metodiki-təlim toplanışı iyun ayının 7-də Ali Hərbi Məktəbin və hərbi hissələrin tərbiyə işləri üzrə bölməsinin təlimatçı-psixoloqları ilə keçirilib.

Toplanışda hərbi qulluqçuların məşğələlərdə iştirakı tam təmin edilib. Məşğələlər cədvəlinə uyğun olaraq, toplanışda iştirak edən təlimatçı-psixoloqlara Daxili Qoşunlarda psixoloji təminatın təşkili və psixoloji işin təhlili barədə arayış-məruzə ilə məlumat verilib, hərbi hissələrdə hərbi qulluqçuların psixoloji sabitliyinin təmini üzrə komandir heyətinin (vəzifəli şəxslərin), təlimatçı-psixoloqların vəzifələri və onların birgə fəaliyyətinin təşkili üsulları izah edilib. Bundan əlavə, təlim prosesində təlimatçı-psixoloqların praktiki və metodiki hazırlığına üstünlük verilərək təcrübə mübadiləsi təşkil edilib. Hərbi qulluqçularla “Psixoprofilaktika və psixokorreksiya işlərinin aparılması qaydaları”, “Döyüş növbətçiliyində, xüsusi əməliyyatlarda, qarnizon və qarovul xidmətində psixoloji təminat. Şəxsi heyətin döyüş qabiliyyətinin bərpası, psixoloji yardım, təlimatlandırma və maarifləndirmə işi”, “Hərbi qulluqçuların (şəxsi heyətin) psixoloji hazırlığı və fərdi xüsusiyyətlərinin öyrənilməsi üzrə təlimatçı-psixoloqların fəaliyyəti”, “Psixodiaqnostik metodlar və onlardan istifadəetmə qaydaları”, “Ədalət anlayışının psixoloji tərəfi və hərbi qulluqçulara təsiri” mövzuları üzrə metodiki və praktiki məşğələlər keçirilib.

Toplanışın yekununda tərbiyə işləri üzrə bölmələrin təlimatçı-psixoloqlarına Ali Hərbi Məktəbdə və hərbi hissələrdə psixoloji xidmətin daha da keyfiyyətli və səmərəli təşkili, aparılması üçün müvafiq tapşırıqlar verilib, həmçinin, Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanının tələbləri çatdırılıb.

**kapitan T.Əlizadə**

# HƏRBİ HİSSƏ XİDMƏTİ-DÖYÜŞ FƏALİYYƏTİNİ MÜVƏFFƏQİYYƏTLƏ HƏYATA KEÇİRİR

İctimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsində 16073 saylı hərbi hissə üzərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlir. Qarşıya qoyulmuş tapşırıqların uğurla icra olunması, eyni zamanda gündəlik xidməti-döyüş fəaliyyəti bunu deməyə əsas verir.





Hər il olduğu kimi, bu il də DİN-in Polis Akademiyasında əyani təhsil alan, II kursu başa vurmuş kursantlar 16073 saylı hərbi hissədə ikiaylıq təlim toplanışına cəlb olunublar. Təlim toplanışının rəhbəri, hərbi hissə komandirinin 1-ci müavini-qərargah rəisi polkovnik-leytenant Vaqif Umudəliyev bildirdi ki, kursantlar təlim toplanışında hərbi hissənin günün nizam qaydalarına əsasən həm nəzəri, həm də praktiki məşğələlərə cəlb olunurlar. Əsasən praktiki təlimlərə üstünlük verildiyini deyən komandir müavini məşğələlərin DİN-in Polis Akademiyasının Hərbi kafedrasının rəisi polis polkovniki Hacı Aslanov, kafedranın müəllim heyəti və hərbi hissədən təyin olunmuş bölük komandirləri kapitan Samir Məmmədovun və baş leytenant Kamran Zalovun rəhbərliyi ilə keçirildiyini diqqətə çatdırdı. Kursantlarla atəş, fiziki, sıra, rabitə, Daxili Qoşunların taktiki və hərbi topoqrafiya hazırlığı üzrə təlimlər keçirilir. Bu zaman onlar silahın sökülüb-yığılması, düzgün tətbiqi, təhlükəsizlik qaydalarına riayət olunması, rabitə vasitələrindən istifadə qaydaları, onların taktiki-texniki xüsusiyyətləri və s. kimi biliklərə yiyələnirlər. Bundan başqa, təlim toplanışında kursantlara başlanğıc atəş çalışması da yerinə yetirilib. Keçirilən məşğələlər kursantlarda hərbi bilik və bacarıqların, peşə vərdişlərinin daha da artırılmasında əhəmiyyətli rol oynayır.

Polkovnik-leytenant V.Umudəliyevin sözlərinə görə, təlim toplanışı çərçivəsində kursantların mənəvi-psixoloji durumu, eyni zamanda təyin olunmuş normaya uyğun qidalanması və səhhətləri də hərbi hissə komandanlığı tərəfindən daima ciddi nəzarətdə saxlanılır. İstirahət günlərində isə istirahət gününün planına əsasən nəzərdə tutulmuş tədbirlər, yeni valideynlərlə görüş, televizora baxış, şən estafetlər, viktorinalar təşkil olunur.

Bir sözlə, polis kursantlarının hərbi biliklərə dərindən yiyələnməsi üçün hərbi hissədə hərtərəfli şərait mövcuddur və hərbi hissə təlim-toplanışını müvəffəqiyyətlə həyata keçirir.

**kapitan T.Əlizadə**

# SAATDAR DAİMA AYIQ-SAYIQLIQ, ÇEVİKLİK, PRİNSİPİALLIQ NÜMAYİŞ ETDİRMƏLİDİR

16073 saylı hərbi hissədə yüksək döyüş hazırlığı və nümunəvi hərbi intizamı ilə fərqlənən bölmələrdən biri hərbi şəhərciyin etibarlı müdafiə və mühafizəsini həyata keçirən komendant bölüyüdür. Bölük komandiri baş leytenant Ağasi Kərimli bölüyün həyata keçirdiyi qarovul xidməti barədə danışdı. Bildirdi ki, xidmətin aparılmasında bir neçə vacib şərt var ki, onlar daima diqqətdə saxlanılmalıdır. O, ilk olaraq xidmətə cəlb olunan hərbi qulluqçuların atəş hazırlığına və fiziki göstəricilərinin yüksək olmasının vacibliyini söylədi. Həmçinin, postda xidmət aparan saatdarın daima ayıq-sayıqlıq, çeviklik, prinsipiallıq nümayiş etdirməsinin, o cümlədən silahın doldurulub-boşaldılması zamanı təhlükəsizlik qaydalarına ciddi əməl olunmasının mühüm əhəmiyyət kəsb edən faktorlardan olduğunu bildirdi. Bölük komandiri xidmətin təşkili zamanı nizamnamələrin tələblərinə qeyd-şərtsiz əməl edilməsinin də





başlıca amil olduğunu qeyd etdi. Onun sözlərinə görə, yalnız bu halda hərbi hissənin etibarlı mühafizəsindən danışmaq olar.

Xidmətə cəlb olunan şəxsi heyətin mənəvi-psixoloji durumunun yüksək səviyyədə olduğunu deyən baş leytenant A.Kərimli görülən işlərdə bölük komandirinin tərbiyə işləri üzrə müavini baş leytenant Raqif Haqverdiyevin əməyini vurğuladı. O, qarovul rəislərindən bölük komandirinin müavini baş leytenant Rabil Əmirxanovun, taqım komandiri baş leytenant İmdad Həsənovun da fəaliyyətini müsbət qiymətləndirdi. Baş leytenant İmdad Həsənov xidmətə olarkən şəxsi heyətin asudə vaxtlarının səmərəli keçirilməsini, stolüstü oyunların təşkilini, o cümlədən onların vaxtlı-vaxtında qidalanmasını da diqqətdən kənarda saxlamır.

Qarovulun fəalları kimi qarovul rəisinin köməkçisi kiçik çavuş Ümid Məmmədovun, qarovul nəfərləri baş əsgərlər Röyal Mustafayevin, Qüdrət İbrahimlinin, əsgərlər Qasım Mirzəyevin, Nurəddin Rəhimovun, Aydın Mirzəyevin və Arzu Orucovun adlarını çəkə bilərik.

**kapitan T.Əlizadə**

## ŞƏHİDLƏRİMİZ

# DÖYÜŞ YOLU ÇƏTİN SINAQLARDAN KEÇDİ...

***Dünyada elə xalqlar var ki, heç vaxt müharibə sınağından keçməyiblər. Onlar torpaq itirməyiblər, didərginlik həyatı yaşamayıblar, minlərlə gənc övladını məzarlara dəfn etməyiblər. Bizim müharibə dərdimizi və yaralarımızı onlar düşündüyümüz həssaslıqla başa düşə bilməzlər. Müharibə ağrı-acıları xalqımızın tarixinin əksər səhifələrinə yazılıb. Elə bil bu bizim bir alın yazımızdır. Xalq olaraq güc mənbəyimiz Vətənə bağlılığımız və döyüş ruhumuzdur. Bu döyüş ruhunu yaşadan oğullarımız həmişə olub, bu gün də var, gələcəkdə də olacaq.***

Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Vətənin müdafiəsində dayanmış, respublikamızın ərazi bütövlüyünün bərpası uğrunda erməni işğalçılarına qarşı qeyrətlə vuruşmuş hərbi qulluqçularının bir qismi döyüşlərdə həlak olub və ya itkin düşüb. Onlar heç vaxt unudulmur, daim ehtiramla anılırlar.

1992-1994-cü illərdə respublikamızın suverenliyi və ərazi bütövlüyü uğrunda döyüşlərdə şəhid olmuş və itkin düşmüş Daxili Qoşunların hərbi qulluqçularının siyahısında gizir Alıyev Vaqif Sərdar oğlunun da adı var. O, 28 may 1966-cı ildə Gədəbəy rayonunun Keşişkənd kəndində dünyaya göz açıb. Sərdar Alıyev və Züleyxa Alıyevanın qurduğu ailədə 4 oğul və 1 qız övladı dünyaya gəlib. Vaqif zəhmətkeş, doğma yurda bağlı, el-oba qədrini bilən bir ailədə tərbiyə alaraq formalaşıb. Doğmalarının dediyinə görə, o, xeyirxahlığı, böyüklərə hörmətlə yanaşması, söz və əməlinin bütövlüyü, dürüstlüyü, xoşxasiyyət olması ilə fərqlənib. Vaqif doğma kəndlərindəki orta məktəbdə 10 il təhsil alıb. 1983-cü ildə Gədəbəy Rayon Hərbi Komissarlığı (hazırda Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Gədəbəy Rayon Şöbəsi) tərəfindən müddətli həqiqi hərbi xidmətə çağırılıb. Onun əsgərlik illəri Vətəndən uzaqda, Rusiya Federasiyasının Perm vilayətinin Kızıl şəhərində keçib. SSRİ DİN-in Daxili Qoşunlarının bu şəhərdə yerləşən 6603 saylı hərbi hissəsində təqdirəlayiq hərbi xidmət keçməsinin nəticəsi olaraq, ona müddətli xidmətdən sonra müvafiq müqavilə əsasında qalıb işləmək təklif olunub. O, bu təkliflə razılaşıb. Əvvəlcə müddətdən artıq həqiqi hərbi xidmətə keçirilib. Sonra isə gizirlər məktəbinə hərbi təhsil almağa göndərilib. Gizirlər məktəbini bitirdikdən sonra ona “gizir” hərbi rütbəsi verilib. Ailəsindən bildirildiyinə görə, Vaqif xidmət etdiyi hərbi hissədə vəzifə borcunu ləyaqətlə yerinə yetirib, hərbi hissə komandanlığı tərəfindən müsbət xarakterizə olunub, hərbi qulluqçular arasında hörmət qazanıb.

1990-cı ildə Vaqif ailə qurub, bir qız övladı dünyaya gəlib. Ailəsi ilə birgə o illərdə Vətənə gəlib doğmalarına baş çəkərkən respublikamızda vəziyyətin necə təhlükəli məcraya yönəldiyinin şahidi olub. Belə ki, Dağlıq Qarabağda erməni separatizminin baş qaldırması, Ermənistanın respublikamızın sərhəd rayonlarına hərbi təcavüzünün başlaması onu da dərindən hiddətləndirir, bütün bunlara laqeyd qala bilmirdi. SSRİ-nin süqutundan sonra, 1992-ci ilin əvvəllərindən başlayaraq Ermə-



nistan-Azərbaycan münaqişəsi daha da alovlanmağa başladı. 1992-ci ilin 26 fevral tarixində erməni hərbi qüvvələri Xocalıda dəhşətli soyqırım törətdilər. Yaranmış belə ağır durumda gizir V.Alıyev qəti olaraq Vətənə dönməyi, torpaqlarımızın müdafiəsində dayanmağı qərarlaşdırır. Xidmət etdiyi hərbi hissədə onu bu fikrindən daşındırmağa cəhd edir, özünü təhlükəyə atmamağı məsləhət görürlər. Ancaq Vaqif fikrindən dönmür və beləliklə ailəsi ilə birgə 1992-ci ilin may ayında Azərbaycana qayıdır.

Gizir V.Alıyev respublikamıza döndükdən sonra vaxt itirmədən hərbi xidmətini davam etdirir. O, DİN-in Daxili Qoşunlarının 5477 saylı hərbi hissəsində (hazırda 17072 saylı hərbi hissə) hərbi xidmətə qəbul olunur. Həmin dövrdə 5477 saylı hərbi hissənin şəxsi heyəti ön cəbhənin ayrı-ayrı istiqamətlərində döyüş əməliyyatlarında iştirak edirdi. Hərbi hissədən döyüş bölgəsinə müntəzəm olaraq hərbi dəstələr göndərilirdi. Gizir V.Alıyev hərbi hissədə xidmətə başladığı gündən onun qarşısına qoyulmuş tapşırıqların icrasında öz bilik və bacarığını əsirgəməyib. Müstəqil ölkəmizin mühüm bir hərbi qurumunun tərkibində xidmət etməsi onu bir vətənpərvər hərbi qulluqçu kimi ruhlandırırdı. Ailə üzvləri də onun bu əhval-ruhiyyəsini hiss edir, Vaqifi mənəvi cəhətdən dəstəkləyirdilər.

Gizir V.Alıyev hərbi hissədən göndərilən hərbi dəstənin tərkibində Tərtər-Ağdərə döyüş zonasında torpaqlarımızın müdafiəsində dayanıb, döyüşlərdə fədakarcasına iştirak edib. O, ön cəbhədə döyüşlərin gedişində təcrübəli hərbi qulluqçulara ehtiyac olduğunu görürdü, poqon daşıyan hərbi qulluqçuların müharibə gerçəkliyində nə kimi məsuliyyət daşıdığını da yaxşı anlayırdı. Hər bir silahdaşına qardaşı nəzəri ilə münasibət göstərirdi, müharibə şəraitinin çətinliklərinə dözümlə yanaşırdı. Vaqifin döyüş yolu zaman baxımından qısa vaxtı əhatə edir, ancaq həmin aylarda Tərtər-Ağdərə bölgəsində şiddətli döyüşlər gedib, çoxlu sayda canlı qüvvə itirmişik.

1992-ci ilin sentyabr ayının 29-da gizir V.Alıyev Ağdərə rayonunun Çıldıran kəndi (hazırda işğal altındadır) ətrafında gedən döyüş zamanı itkin düşüb. Onun taleyi ilə bağlı heç bir məlumat əldə edə bilməyən ailəsi üçün bu qeyri-müəyyənlik çox sarsıdıcı olub. Doğmaları döyüşlər getdiyi dövrdə və sonrakı illərdə ondan bir xəbər eşidə biləcəklərinə ümidlərini itirməyiblər. Ancaq illər keçdikcə, müharibədən geri dönməyənlərin yoxluğu ilə məcbur olub barışmaq gerçəkliyi də yaranır...

Gizir V.Alıyevin həyat yoldaşı Almaz Həsənovanın müraciəti əsasında 2001-ci ilin mart ayının 14-də Gəncə Şəhər Nizami Rayon Məhkəməsi itkin hərbi qulluqçunun ölmüş elan edilməsi barədə müvafiq qətnamə qəbul edib. Qətnamənin məzmununda Gəncə Şəhər Nizami Rayon Hərbi Komissarlığının 31.01.2001-ci il tarixli, 4/131 saylı arayışına istinadən gizir V.Alıyevin 29.09.1992-ci ildə Sırxavənd bölgəsində itkin düşdüyü, Daxili Qoşunların 17072 saylı hərbi hissəsinin 04.12.2000-ci il tarixli, 450 saylı arayışına istinadən isə onun 29.09.1992-ci ildə Ağdərə rayonunun Çıldıran kəndində itkin düşdüyü qeyd olunub. Daxili Qoşunların 571 saylı, 17.08.2017-ci il tarixli arxiv arayışında isə gizir V.Alıyevin Ağdam rayonunun Kiçan kəndində itkin düşdüyü yazılıb. 2001-ci il iyunun 21-də tərtib olunmuş AZ № 052346 nömrəli ölüm haqqında şəhadətnaməyə görə isə gizir V.Alıyevin 29 sentyabr 1992-ci ildə Ağdərə rayonunun Çıldıran kəndində həlak olduğu göstərilib.

Müharibə itkinləri barədə 2002-ci ildə Tbilisidə işıq üzü görmüş “Neizvestnost... nadejda” adlanan (Xəbərsizlik... ümid) kitabda gizir V.Alıyevə həsr edilən qısa yazı verilib. Həmin yazıda onun 29.09.1992-ci ildə Ağdərə rayonunun Sırxavənd kəndi ərazisində itkin düşdüyü qeyd edilib. Mən məqalədə gizir V.Alıyevin döyüşdə itkin düşdüyü ərazini Çıldıran göstərməklə məhkəmə qətnaməsi və ölüm haqqında şəhadətnaməyə əsaslanmışam.

Gizir V.Alıyevin həyat yoldaşı A.Həsənova Daxili Qoşunların 17072 saylı hərbi hissəsinin tərkibində hərbi xidmət keçərək pensiyaya çıxıb. Hazırda hərbi hissədə mülki işçi kimi çalışır. Qızı Cəmilə Alıyeva isə tibb bacısıdır, Gəncədə Abbas Səhhət adına xəstəxanada işləyir. Ailəyə dövlətimiz tərəfindən müvafiq müavinət təyin edilib. Vaqifin ata-anası artıq dünyasını dəyişib. O, doğmalarının, həmkəndlilərinin, silahdaşlarının xatirəsində yaşayır, həmişə yad olunur.

İnanıram ki, torpaqlarımız işğaldan azad ediləcək, şəhidlərimizin qisası alınacaq, itkinlərimizin taleyinə də aydınlıq gətiriləcək.

**Yalçın Abbasov**

4_Layout 1 14.06.2018 10:34 Page 1



## HƏRBİ QULLUQÇULARI MÜSBƏT FƏRDİ KEYFİYYƏTLƏR FORMALAŞDIRIR

**Redaksiyadan: Daxili Qoşunların hərbi hissələrində fəaliyyət göstərən "Əsgər" qəzetinin ştatdankənar müxbir postlarından müntəzəm olaraq redaksiyamıza nümunəvi xidməti ilə fərqlənən hərbi qulluqçular barəsində məlumatlar verilir. Bu məlumatlar əsasında hazırlanan yazılar belə hərbi qulluqçuların şəxsi heyətə tanıdılması və həvəsləndirilməsinə xidmət edir, eləcə də müsbət nümunələrin təbliğ olunması məqsədi daşıyır.**

25032 saylı hərbi hissədə komendant bölüyünün komandiri **baş leytenant Sənan Baxışov** 2005-ci ildən Daxili Qoşunların sıralarında xidmət edir. Onun fəaliyyəti hərbi hissə komandanlığı tərəfindən müsbət xarakterizə olunur. O, 13 yanvar 1985-ci ildə Göygöl rayonunda anadan olub. Dövlət Sərhəd Xidmətinin tərkibində müddətli həqiqi hərbi xidmət keçib. 2014-cü ildə Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Orta İxtisas Hərbi Məktəbini bitirib. Daxili Qoşunların yetişdirdiyi zabit kadrı olaraq indiyədək təyin edildiyi vəzifələrdə



komandanlığın etimadını doğruldub. Belə ki, 25032 saylı hərbi hissənin tədris bölüyündə taqım komandiri, 12318 saylı hərbi hissənin patrul bölüyündə taqım komandiri vəzifələrində uğurlu fəaliyyəti nəzərə alınaraq, hazırkı məsul vəzifəyə irəli çəkilib. Baş leytenant S.Baxışov rəhbərlik etdiyi bölüyün xüsusiyyətlərinə yaxşı bələddir. Şəxsi heyətin döyüş xidmətinin aparılmasına hazırlanması, xidmətin düzgün təşkili, döyüş hazırlığının qorunması və yüksəldilməsi kimi mühüm vəzifələrin yerinə yetirilməsinə bir komandir kimi məsuliyyətlə yanaşan zabit, tabeliyindəki hərbi qulluqçuların ruh yüksəkliyini də vacib amil hesab edir. Ona görə də bölükdə sağlam mənəvi abu-havanın qorunub saxlanması, nizam-intizamın möhkəmləndirilməsi yönündə əzmlə çalışır. Həmçinin, əsgərlərinə qayğı göstərir, onların sağlamlığı, ailə vəziyyəti ilə daim maraqlanır, xidmət və məişət şəraitinin düzgün tənzimlənməsini ciddi nəzarətdə saxlayır.

O, şəxsi heyətin təlim-tərbiyəsi prosesində hər bir komandirin örnək olması, öz bilik və bacarığı ilə bu məqsəd üçün töhfəsini verməsi cəhətinin əhəmiyyətini vurğulayaraq, bölüyün zabit, gizir və çavuşlarına da bunu aşılayır.

Baş leytenant S.Baxışovun təqdirəlayiq əməyinin nəticəsidir ki, komendant bölüyü hərbi hissədə qabaqcıllar sırasında yer tutur. O, təşəbbüskar, qətiyyətli, xidmət mənafeyini qoruyan, zabit şərəfini uca tutan hərbi qulluqçu olaraq hərbi kollektivdə hörmət qazanıb. Hərbi hissədə keçirilən inspeksiya yoxlamalarında onun fəaliyyəti müsbət qiymətləndirilib. Nümunəvi xidmətinə görə dəfələrlə mükafatlandırılıb.

**Kiçik gizir Atəm Fətiyev** də nümunəvi xidmət edən hərbi qulluqçulardan biridir. Hərbi hissənin tərbiyə işləri üzrə bölməsində mütəxəssis vəzifəsində xidmət edir. O, 8 may 1996-cı ildə Sabirabad rayonunun Nizami kəndində anadan olub. Şirvan şəhərindəki Dövlət İqtisadiyyat və Humanitar Kollecinin məzunudur. Müddətli həqiqi hərbi xidmətini Daxili Qoşunların 16076 saylı hərbi hissəsində keçib. Orada baş əsgər hərbi rütbəsinə yüksəlib. 2018-ci ilin yanvar ayından 25032 saylı hərbi hissənin tərkibində hərbi xidmətini davam etdirir. Bu ilin yanvar ayının 4-də ona "kiçik gizir" hərbi rütbəsi verilib. O, Daxili Qoşunların sıralarında hərbi xidmətini davam etdirməsindən çox məmnundur. "Xalqımızın əmin-amanlığını qoruyan qoşunun hərbi qulluqçusu olmaq



şərəfdir" – deyən kiçik gizir A.Fətiyev, icraçılığı, təlimdə əzmkarlığı, təmkin və ciddiliyi ilə fərqlənir. Funksional vəzifələrini dəqiq yerinə yetirir. Ona təhkim olunan klubun əmlakının düzgün istifadəsinə, qeydiyyatı və hesabatının aparılmasına, habelə bölmələrdə mədəni-maarif əmlakının vəziyyətinin nəzarətdə saxlanmasına yüksək cavabdehliklə yanaşır. Kiçik gizir A.Fətiyev hərbi hissədə mədəni-kütləvi tədbirlərin hazırlanması və keçirilməsində fəal iştirak edir. Hərbi xidmət təcrübəsinin az olmasına baxmayaraq, kiçik gizir A.Fətiyev qarşıya qoyulan tapşırıqların öhdəsindən layiqincə gəlir.

**Baş əsgər Bəxtiyar Mustafayev** yüksək nizam-intizamı, müsbət fərdi keyfiyyətləri ilə fərqlənən hərbi qulluqçularımızdandır. O, komendant bölüyündə baş atıcı vəzifəsində xidmət edir. Bəxtiyar 1 dekabr 1995-ci ildə Ağstafa rayonunun Aşağı Kəsəmən kəndində anadan olub. Ali təhsillidir. 2017-ci ildə Azərbaycan Dövlət Dəniz Akademiyasının Elektromexanika fakültəsini bitirib. Hərbi xidmətə qədər futbol idman növü ilə məşğul olub. 2017-ci ilin oktyabr ayında Daxili Qoşunların sıralarına müddətli həqiqi hərbi xidmətə çağırılıb. 25031 saylı hərbi hissədə hərbi andı qəbul edib. 25032 saylı hərbi hissənin komendant bölüyündə hərbi xidmətini davam etdirməsi onun döyüş və mənəvi-psixoloji hazırlığına öz təsirini göstərib. Döyüş xidmətinə cəlb olunan hərbi qulluqçu kimi üzərinə düşən vəzifələrin məsuliyyətini düzgün dərk edir. Hərbi hissənin 1-ci postunda - döyüş bayrağının keşiyində dayanması ilə



qürur duyur. "Döyüş bayrağı müqəddəsdir, onu göz bəbəyi kimi qorumalıyıq" – deyən baş əsgər B.Mustafayev vətənpərvərlik əqidəsinə sadiqdir. O, xidmətdə ayıq-sayıq, təlimlərdə fəal hərbi qulluqçudur. Əsgər yoldaşları ilə ünsiyyətində səmimi və təmkinlidir, heç vaxt onlardan öz köməyini əsirgəmir. Səliqə-sahmanına, asudə vaxtının səmərəli istifadə olunmasına ciddi yanaşır. Bəxtiyar "Əsgər" qəzetini həmişə maraqla oxuyur, xüsusən əsgərlərin xidməti barədə materiallara diqqət yetirir.

Baş əsgər B.Mustafayev nümunəvi xidmətinə görə komandirlər tərəfindən mükafatlandırılıb.

**25032 saylı hərbi hissənin ştatdankənar müxbir postu**

## RAMAZAN İSLAM DİNİNİN ƏN ƏLAMƏTDAR BAYRAMIDIR

Ramazan bayramı İslam dinində mövcud olan ən böyük iki bayramdan biri, bəlkə də birincisidir. Bu bayram Ramazan ayının sona çatması münasibətilə Şəvval ayının birində qeyd edilir və dini mənbələrdə "Fitr bayramı" kimi də xatırlanır. Bayram günü İslam şəriətinə görə oruc tutmaq haramdır. Ramazan bayramına keçən gecə fitrə pulunu ayırıb həmin axşam, ya bayram namazına qədər, ya da gün ərzində öz təyinatı üzrə çatdırmaq lazımdır.

Bayram günü səhər tezdən qüsl alınır, hava işıqlaşandan sonra isə bayram namazı qılınır. Bu namaz eynilə Qurban bayramında qılınan namaz kimidir. Bayram namazının məsciddə camaatla qılınması bəzi məzhəblərdə vacib, bəzisində isə müstəhəbdir. Amma bayram namazının imkan daxilində məsciddə camaatla qılınması tövsiyə olunur.

Bayram günü insanın ətirlənib təzə paltar geyinməsi, qohum-qonşularını təbrik etməsi, doğmalarına baş çəkməsi savabdır.

Ramazan bayramı oruc tutub-tutmamasından asılı olmayaraq, hər bir müsəlmanın bayramıdır. Bütün dünya müsəlmanları bu bayramı qeyd edirlər. Bəzi müsəlman ölkələrində bu bayram rəsmi şəkildə təntənəli surətdə keçirilir. Bu bayramı başqa bayramlardan fərqləndirən bir xüsusiyyət də bir ay boyunca gündüzlər ac-susuz qalıb, axşamlar ibadət edən və bu ibadətlərin çətinliklərinə dözən, Qədr gecələrində səhərə qədər oyaq qalıb ibadət edən müsəlmanların bu ayın tələblərindən irəli gələn məsuliyyətin başa çatmasından dolayı hiss etdikləri bir rahatlıq və arxayınlıq duyğusudur. Başqa bayramlarda olduğu kimi, Ramazan bayramı da insanların yaşayış tərzinə öz müsbət təsirini göstərir. Bayram günündə insanlar şadlanır, əhatəsi ilə səmimi və isti münasibət saxlayır, ailəsinə daha çox vaxt ayıraraq bayram gəzintisinə çıxırlar.




Ramazan bayramının əsas üstünlüklərindən biri də bir ay boyunca insanın etdiyi əməlləri müqabilində mükafatlandırılacağına inamı və bu işin öhdəsindən gəldiyi üçün keçirdiyi sevinc hissidir.

Ramazan bayramı müsəlmanların birliyi və həmrəyliyi baxımından da önəmlidir. Bu bayramda müsəlmanlar bir-birini Ramazan ayını müvəffəqiyyətlə başa vurduqları üçün təbrik edirlər. Bu bayram münasibətilə nəinki sıravi müsəlmanlar, hətta dövlət başçıları da bir-birilərini təbrik edirlər. Bəzi müsəlman ölkələrinin dövlət başçıları digər müsəlman ölkələrindəki bayram tədbirlərinə qatılır və bir-birinə qarşı yüksək həmrəylik nümayiş etdirirlər.

**Müqəddəs Ramazan bayramınız mübarək!**

*metodiki vəsait*

## HƏZM SİSTEMİ XƏSTƏLİKLƏRİNİN PROFİLAKTİKASI

**1. Diş xəstəliklərinin profilaktikasını aparmadan mədə xəstəliklərinin profilaktikasını aparmaq heç də düzgün hesab edilmir.**

Buna görə də ilk öncə diş xəstəliklərinin profilaktikasını aparmaq lazımdır.

**2. Düzgün qidalanma**

Bu, mədə xəstəliklərinin profilaktikası üçün əsas şərt sayılır. İnsan orqanizmi üçün gündə 3 dəfə, kifayət miqdarda olmaqla (səhər yeməyi, nahar və şam yeməyi) qida qəbul edilməsi vacibdir.

Tam dəyərli səhər yeməyinin qəbul edilməsi insan orqanizmində gedən həzm prosesi üçün çox vacibdir. Ona görə də səhər yeməyindən imtina etmək olmaz. Səhər oyanandan sonra ilk növbədə 1 stəkan təmiz su içmək məsləhət görülür. Bu məqsədlə adi süfrə mineral sularından da (tərkibindəki qazların xaric olması üçün axşamdan stəkana tökərək saxlamaq lazımdır) istifadə etmək olar. Səhər yeməyini hər zaman eyni vaxtda, sakit şəraitdə və tələsmədən yeməyə çalışmaq lazımdır. Yadda saxlayın ki, səhər yeməyi bağırsaq sistemini "oyadır". "Tam dəyərli səhər yeməyi" dedikdə həkimlər heç də 1 fincan kofe və buterbrodu deyil, normal qida qəbulunu nəzərdə tuturlar. Mütəxəssislər səhər yeməyi zamanı sıyıqlar (yulaf, qarabaşaq, darı və s.), müsli, yulaf və qarğıdalı lopalarının yoqurtla qarışığı, kefir, təzə meyvələr və s. bu kimi qidalar qəbul etməyi məsləhət görürlər. Kəpəkli çörək, pendir, pomidor, xiyar da bağırsaqların fəaliyyətini stimullaşdırır.

Bir çox mütəxəssislər qeyd edirlər ki, gün ərzində 4-cü qida qəbulu da (2-ci səhər yeməyi və ya ilkin nahar) məsləhət görülür. Bəs onlar bunu nə üçün təklif edirlər? Məsələ ondan ibarətdir ki, mədə üçün daha az miqdarda olan qidaları həzm etmək daha asandır. Ona görə də daha tez-tez, ancaq az miqdarda olmaqla qida qəbul edilməsi birdən həddindən artıq yeməkdən daha yaxşıdır. Normada yeyilən qidanın həcmi o qədər olmalıdır ki, yemək stolundan qalxdıqdan sonra insanda azca da olsa aclıq hissiyyatı qalsın.

Qida müəyyən təyin olunmuş vaxtda qəbul olunmalıdır. Şam yeməyini yatmamışdan azı 2 saat əvvəl qəbul etmək lazımdır. Yatmazdan qabaq 1 stəkan yağsız kefir və ya yoqurt, alma, banan və s. bu kimi yüngül qidalar da qəbul etmək olar. Digər orqanlar kimi, mədəyə də gecə vaxtı özünü bərpa etmək üçün tam istirahət vermək lazımdır.

Həddindən artıq yemək qəbul edil-




məsi kimi, qida qəbulları arasında uzun fasilələrin verilməsi də (məsələn, bəzi insanlar ancaq səhər və axşam vaxtı qida qəbul etməyə adət edirlər) zərərli hesab edilir.

Doymaq, ancaq bu zaman həddindən artıq yeməmək üçün qidanı yavaş-yavaş və yaxşı-yaxşı çeynəmək lazımdır. Bu, qidanı daha yaxşı xırdalamaq və bunun nəticəsində mədəni əlavə əziyyətdən qorumaq üçün vacib hesab edilir. Yaxşı çeynənməmiş iri qida kütlələrini həzm etmək üçün mədə daha çox işləməli olur və artıq yüklənir. Bu isə müəyyən vaxt keçdikdən sonra mədədə müxtəlif dəyişikliklərin baş verməsi və onun öz funksiyasını normal şəkildə yerinə yetirə bilməməsi ilə nəticələnir.

Heç bir halda yemək vaxtı su, şirələr və s. içkilər içməyin. Bu, qidanın həzm edilməsi prosesində mədənin işini pozur. Yeməkdən bilavasitə sonra da maye içmək məsləhət görülmür. Bunun üçün bir qədər gözləməyiniz daha yaxşıdır.

Mədə xəstəliklərinin profilaktikası üçün düzgün və tam dəyərli qidalar qəbul etmək lazımdır. Yəni gündəlik qəbul edilən qidaların tərkibində kifayət qədər zülallar, yağlar, karbohidratlar, vitaminlər və mikroelementlər olmalıdır. Ona görə də qida faydalı olmaqla yanaşı, müxtəlif çeşidli olmalı, həmçinin, tərkibində kifayət miqdarda meyvə, tərəvəz və giləmeyvələr də yer almalıdır. Məhz onların tərkibində insan orqanizmi üçün çox vacib hesab edilən xeyli miqdarda sellüloz vardır. Sellüloz orqanizmə xaricdən daxil olan və ya maddələr mübadiləsi nəticəsində orqanizmdə yaranan zərərli maddələrin xaric edilməsi üçün sanki "süpürgə" rolunu oynayır. Sellüloz normal həzm prosesinə və bağırsaqların fəaliyyətinə də kömək edir.

Kobud qidalara nisbətən yumşaq qidalara daha çox üstünlük vermək lazımdır. Qızardılmış, kəskin, duzlu qidaları maksimal şəkildə məhdudlaşdıraraq, suda və buğda bişmiş qidalara üstünlük verməyiniz məsləhət görülür. Ədviyyatlardan da çox az miqdarda istifadə etmək tövsiyə olunur.

Əgər sizdə hər hansı bir mədə xəstəliyi mövcuddursa, siz hər zaman həkim tərəfindən müəyyən edilən pəhrizə əməl etməlisiniz. Çünki pəhriz bu halda təyin olunan müalicənin ayrılmaz tərkib hissəsi hesab olunur.

Qida və içkilər mütləq ılıq şəkildə olmalıdır, onların isti, həmçinin, soyuq şəkildə qəbul edilməsi yolverilməzdir. Ona görə də hətta isti yay günlərində də içkiləri otaq temperaturunda olmaqla qəbul etmək lazımdır. Məsələ burasındadır ki, soyuq qidanın təsiri nəticəsində mədənin ifrazedici funksiyası və mədədə olan turşuluq artır. Xeyli isti qidanın qəbul edilməsi nəticəsində isə, adətən, mədənin selikli qişasının atrofiyası (məhv olması) baş verir.

Faydalı olmasından savayı, qidanın təzə olması və steril şəraitdə hazırlanması da çox vacibdir. Keyfiyyətsiz qidaların qəbul edilməsi nəticəsində tez-tez baş verən qida zəhərlənmələri nəinki mədənin, həmçinin, bütün mədə-bağırsaq sistemi xəstəliklərinin bilavasitə səbəbi olur. Qidanı bir gün ərzində qəbul edilməsi şərti ilə hazırlamaq lazımdır.

Dünyanın bütün qastroenteroloqları ev şəraitində hazırlanan qidaların qəbul edilməsini tövsiyə edirlər. Kafe və restoranlarda qida qəbul edilməsinə isə yalnız nadir hallarda yol vermək olar. Müasir kafe və restoranların əksəriyyəti qidaların xeyirli olması barədə deyil, ilk növbədə onların dadlı və xarici görünüşünün daha çox iştahgətirici olması barədə düşünürlər. Bundan əlavə, kafe və restoranların bir çoxunda sanitar-gigiyenik normalara heç də dəqiq şəkildə riayət olunmur.

*(davamı gələn sayımızda)*

## HƏRBİ XƏBƏRLƏR -YENİLİKLƏR-



### İlk "Eitan" zirehli transportyorları İsrail müdafiə ordusunun bölmələrinə daxil olub

Ordu.az xəbər verir ki, bu barədə İsrail Müdafiə Nazirliyi məlumat yayıb.

Məlumata görə, yeni zirehli maşınlar ilk olaraq "Nahal" briqadasının 50-ci piyada batalyonuna verilib.

"Eitan" İsrail ordusunda hələ 60-cı illərdə istehsal edilən M113 zirehli transportyorlarının əvəzlənməsi üçün istehsal edilib. Bu BTR-lər mexanik, komandir və atıcı da daxil olmaqla 12 əsgər daşıya bilir. Maşının gücü 750 at gücündən ibarətdir və sürəti saatda 90 kilometr təşkil edir.



### Rusiya Aerokosmik Qüvvələri iki ədəd Su-34 cəbhə bombardmançısı ilə təchiz edilib

Ordu.az xəbər verir ki, bu barədə Rusiya Aerokosmik Qüvvələrinin komandanlığı məlumat yayıb.

Məlumata görə, Novosibirsk Aviasiya Zavodu 2018-ci ildə dövlət sifarişi planının həyata keçirilməsinə uyğun olaraq, Rusiya Müdafiə Nazirliyinə daha 2 ədəd Su-34 qırıcısını təhvil verib. Təyyarələr 195-ci nümayəndəlik tərəfindən qəbul edilib. Bununla da cari il çərçivəsində Rusiya Aerokosmik Qüvvələri artıq 4 ədəd Su-34-lə təchiz olunub.

### Rusiya Qara Dəniz Donanması "Vışniy Voloçyok" kiçik raket gəmisi ilə təchiz edilib



Ordu.az xəbər verir ki, bu barədə Rusiya Qara Dəniz Donanmasının İnformasiya Təminatı Şöbəsinin rəisi, birinci dərəcəli kapitan Vyaçeslav Truxaçyov bəyan edib.

"Yeni "Vışniy Voloçyok" "Buyan-M" seriyasının modernləşdirilmiş çoxməqsədli gəmisidir. O müasir artilleriya, raket, diversiya əleyhinə, zenit və radiotexniki silahlarla təchiz edilib", - deyə Truxaçyov bildirib.

O, qeyd edib ki, gəmi, həmçinin, universal "Kalibr-NK" raket kompleksləri ilə təchiz olunub.

### Rusiya Cənub Hərb Dairəsi yeni "Tayfun-K" zirehli avtomobilləri ilə təchiz edilib

Ordu.az xəbər verir ki, bu barədə Rusiya Cənub Hərb Dairəsinin mətbuat xidməti məlumat yayıb.

Məlumata görə, K-53949 "Tayfun-K" zirehli maşınları daha öncə Rostov



vilayətində yerləşən xüsusi təyinatlı 22-ci qvardiya briqadasına verilib.

Maşınlar artıq 9 may 2018-ci ildə Rostovda keçirilən Qələbə paradında nümayiş etdirilib.

**"ORDU.AZ" hərbi xəbər saytı**

## Allah rəhmət eləsin

Daxili Qoşunların Komandanlığı kapitan Hüseyn Rəfiyevə **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

TƏSİSÇİ:
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: X.Hacızadə

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000